"BİZİM QONAQ"

"Mən deyirdim ki, əgər bir gün yazmasam ölərəm"

Ədilə Hüseynzadə: "Bəstəkarın əsəri canından çıxmalı, notlar qanıyla yazılmalıdır"

TƏRANƏNİN TƏQDİMATI

Azərbaycan kinosunun şöhrət tacı olan "Arşın mal alan" filminə hər dəfə tamaşa edəndə Gülçöhrənin, Asyanın səsinə dönə-dönə qulaq asmış və bulaq suyu kimi süzülən bu şəffaf səslərin saflığından zövq almışıq. Gülçöhrənin və Asyanın gözəlliyinə o qədər aludə olmuşuq ki, ariyaların ifaçılarının kimliyinə məhəl qoymamışıq. Gülçöhrənin ariyası Mariya Titorenkonun, Asyanın oxuması isə əməkdar incəsənət xadimi Ədilə Hüseynzadənin ifasında səslənib. Bu həmin Ədilə xanımdır ki, Üzeyir bəyin sevimli tələbəsi olub. Onun ilk mahnısı Üzeyir bəy tərəfindən bəyənilib. Bülbül onun ilk mahnısına həyat verib.

İndi Ədilə xanım ömrünün 89-cu payızını yaşayır. Mehriban üzlü, səmimi rəftarlı bu qadın ömrünün ötüb-keçən günlərini bir nağıl kimi danışır. Ancaq bu nağılda hər şey həqiqətdir:

İLK ƏSƏRİNİ BÜLBÜL OXUYUB

- Biz hamımız Üzeyir bəyin tələbələri olmuşuq. Mən İçərişəhərdə anadan olmuşam. İçərişəhərdə ata mülküm var. Ailəmizdə musiqiyə böyük həvəs olub. Uşaqlıqda ailəmizdə hamı musiqi ilə məşğul olurdu. Məndən 8 yaş böyük olan qardaşım skripkada çalırdı. İki bacım da pianoçu idi. Mən də piano ilə məşğul olmağa başladım. Üzeyir bəy o vaxtlar Çəmbərəkənddə olan bir texnikumda dərs verirdi. Sonra o texnikum musiqi məktəbi oldu. Böyük bacımla birlikdə musiqi məktəbinə getdik. Əvvəlcə Jenetskayanın sinfində çaldıq. Bir il keçəndən sonra Üzeyir bəy professor Aysberqi götürdü. O dedi ki, sizin quruluşunuz Jenetskaya tərəfindən düzgün qoyulmayıb. Təzədən bizimlə məşğul oldu. Ona görə Üzeyir bəylə bütün ailəmiz tanış idi. Yuxarı sinifdə 2 bacı bir sinifdə oxuyurduq. Asəf Zeynallı bizə harmoniyadan dərs verirdi. O da mənim qardaşımla möhkəm dost idi. Asəf violençeldə, qardaşım isə skripkada çalırdı. Mən paralel olaraq orta məktəbdə oxuyurdum. Özüm də əlaçı idim. Ən çox sevdiyim fənn də riyaziyyat idi. N.Nərimanov adına Sənaye Texnikumunda o zaman yalnız oğlanlar təhsil alırdı. İlk dəfə olaraq 4 qız həmin məktəbə daxil olduq. Əla qiymətlərlə texnikumu bitirdiyim üçün məni imtahansız Az.NKİ-yə yolladılar. İmtahansız həmin instituta qəbul olundum. 32-ci il idi. 2 ildən sonra ailə qurdum. 3-cü övladım dünyaya gəlməmişdən kimyaçı mühəndis-texnoloq ixtisası üzrə institutu əla qiymətlərlə bitirdim. 3 il evdə oturub uşağın böyüməsini gözlədim. Bu illər ərzində musiqisiz yaşaya bilmirdim. Axı mənim özülüm qoyulmuşdu. "Nece olub ki, mən musiqini atmışam?"- deyə daim narahatlıqla düşünürdüm.

36-cı il idi. Şüvələnda bağımızda dincəlirdik. Bir gün kiçik bacım qışqıra-qışqıra: "Papa, mama, Üzeyir bəy dalanla bizə tərəf gəlir"-deyə evə qaçdı. İnan ki, hamımız küçəyə yüyürdük. Atam sevincək halda: "Buyurun, Üzeyir bəy, nə əcəb sizdən" - deyə onu qarşıladı. Üzeyir bəy dedi ki, indi qonaq gəlməyə vaxtı yoxdur. İkiotaqlı ev axtarır: "Mən "Koroğlu"nu yazıram. Səhərlər işləyəndə axşamlar gəlib Məleykə xanımla orda dincəlmək istəyirəm". Atam dedi ki, buyurun gəlin, bizim bağımıza baxın. Bizim evimizdə də ayrıca girişi olan iki otaq və bir mətbəxdən ibarət həyət vardı. Əmimgil, bibimgil hərdən gəlib qalırdılar. Atam dedi ki, Üzeyir bəy, boş otaqlar qalıb, mən heç vaxt kirayə vermirəm. Gəlin baxın, xoşunuza gəlsə, qurbandır size. Otaqlar Üzeyir bəyin çox xoşuna gəldi. O, çox çalışdı ki, atama kirayə haqqı versin. Atam da: "Nə qədər istəyirsiniz qalın, mən heç vaxt sizdən pul götürmərəm"-deyə bildirdi. Üzeyir bəy bizim bağımıza köçdü. Həmin yay bizimçün çox böyük xoşbəxtlik oldu. O vaxt Şüvələnda təkcə vağzala işıq çəkilmişdi. Evlərdə lampa yandırırdılar. 2-3 gündən sonra həyətimizə mantyorların gəldiyini gördük. Üzeyir bəy əvvəlcə özünün yaşadığı otaqlara, sonra da bizim otaqlara işıq çəkdirdi. Əsas xətt məhəlləyə gəldiyi üçün yavaş-yavaş qonşular da evlərinə işıq çəkməyə başladılar. Beləliklə, çox keçmədən Şüvələnda bütün evlərin işığı oldu.

- Siz onda Üzeyir bəyin tələbəsi idiniz?

- Yox, mən hələ Üzeyir bəyin sinfində oxumurdum. Üzeyir bəy hərdən zarafatla "sən bizi atdın, niyə davam eləmədin" - deyə mənə satəşırdı. Ancaq özü görürdü ki, 2 uşaqla mənimçün çətindir. Sonra üçüncü övladım dünyaya gəlməmişdən kimyaçı mühəndis-texnoloq ixtisası üzrə institutu əla qiymətlərlə bitirdim. 3 il evdə oturub uşağın böyüməsini gözlədim. Bu illər ərzində musiqisiz yaşaya bilmirdim. Axı mənim özülüm qoyulmuşdu. "Nece olub ki, mən musiqini atmışam?"- deyə daim narahatlıqla düşünürdüm.

36-cı il idi. Şüvələnda bağımızda dincəlirdik. Bir gün kiçik bacım qışqıra-qışqıra: "Papa, mama, Üzeyir bəy dalanla bizə tərəf gəlir"-deyə evə qaçdı. İnan ki, hamımız küçəyə yüyürdük. Atam sevincək halda: "Buyurun, Üzeyir bəy, nə əcəb sizdən" - deyə onu qarşıladı. Üzeyir bəy dedi ki, indi qonaq gəlməyə vaxtı yoxdur. İkiotaqlı ev axtarır: "Mən "Koroğlu"nu yazıram. Səhərlər işləyəndə axşamlar gəlib Məleykə xanımla orda dincəlmək istəyirəm". Atam dedi ki, buyurun gəlin, bizim bağımıza baxın. Bizim evimizdə də ayrıca girişi olan iki otaq və bir mətbəxdən ibarət həyət vardı. Əmimgil, bibimgil hərdən gəlib qalırdılar. Atam dedi ki, Üzeyir bəy, boş otaqlar qalıb, mən heç vaxt kirayə vermirəm. Gəlin baxın, xoşunuza gəlsə, qurbandır size. Otaqlar Üzeyir bəyin çox xoşuna gəldi. O, çox çalışdı ki, atama kirayə haqqı versin. Atam da: "Nə qədər istəyirsiniz qalın, mən heç vaxt sizdən pul götürmərəm"-deyə bildirdi. Üzeyir bəy bizim bağımıza köçdü. Həmin yay bizimçün çox böyük xoşbəxtlik oldu. O vaxt Şüvələnda təkcə vağzala işıq çəkilmişdi. Evlərdə lampa yandırırdılar. 2-3 gündən sonra həyətimizə mantyorların gəldiyini gördük. Üzeyir bəy əvvəlcə özünün yaşadığı otaqlara, sonra da bizim otaqlara işıq çəkdirdi. Əsas xətt məhəlləyə gəldiyi üçün yavaş-yavaş qonşular da evlərinə işıq çəkməyə başladılar. Beləliklə, çox keçmədən Şüvələnda bütün evlərin işığı oldu.

- Siz onda Üzeyir bəyin tələbəsi idiniz?

- Yox, mən hələ Üzeyir bəyin sinfində oxumurdum. Üzeyir bəy hərdən zarafatla "sən bizi atdın, niyə davam eləmədin" - deyə mənə satəşırdı. Ancaq özü görürdü ki, 2 uşaqla mənimçün çətindir. Sonra üçüncü övladım dünyaya gəlməmişdən kimyaçı mühəndis-texnoloq ixtisası üzrə institutu əla qiymətlərlə bitirdim. 3 il evdə oturub uşağın böyüməsini gözlədim. Bu illər ərzində musiqisiz yaşaya bilmirdim. Axı mənim özülüm qoyulmuşdu. "Nece olub ki, mən musiqini atmışam?"- deyə daim narahatlıqla düşünürdüm.

36-cı il idi. Şüvələnda bağımızda dincəlirdik. Bir gün kiçik bacım qışqıra-qışqıra: "Papa, mama, Üzeyir bəy dalanla bizə tərəf gəlir"-deyə evə qaçdı. İnan ki, hamımız küçəyə yüyürdük. Atam sevincək halda: "Buyurun, Üzeyir bəy, nə əcəb sizdən" - deyə onu qarşıladı. Üzeyir bəy dedi ki, indi qonaq gəlməyə vaxtı yoxdur. İkiotaqlı ev axtarır: "Mən "Koroğlu"nu yazıram. Səhərlər işləyəndə axşamlar gəlib Məleykə xanımla orda dincəlmək istəyirəm". Atam dedi ki, buyurun gəlin, bizim bağımıza baxın. Bizim evimizdə də ayrıca girişi olan iki otaq və bir mətbəxdən ibarət həyət vardı. Əmimgil, bibimgil hərdən gəlib qalırdılar. Atam dedi ki, Üzeyir bəy, boş otaqlar qalıb, mən heç vaxt kirayə vermirəm. Gəlin baxın, xoşunuza gəlsə, qurbandır size. Otaqlar Üzeyir bəyin çox xoşuna gəldi. O, çox çalışdı ki, atama kirayə haqqı versin. Atam da: "Nə qədər istəyirsiniz qalın, mən heç vaxt sizdən pul götürmərəm"-deyə bildirdi. Üzeyir bəy bizim bağımıza köçdü. Həmin yay bizimçün çox böyük xoşbəxtlik oldu. O vaxt Şüvələnda təkcə vağzala işıq çəkilmişdi. Evlərdə lampa yandırırdılar. 2-3 gündən sonra həyətimizə mantyorların gəldiyini gördük. Üzeyir bəy əvvəlcə özünün yaşadığı otaqlara, sonra da bizim otaqlara işıq çəkdirdi. Əsas xətt məhəlləyə gəldiyi üçün yavaş-yavaş qonşular da evlərinə işıq çəkməyə başladılar. Beləliklə, çox keçmədən Şüvələnda bütün evlərin işığı oldu.

- Siz onda Üzeyir bəyin tələbəsi idiniz?

- Yox, mən hələ Üzeyir bəyin sinfində oxumurdum. Üzeyir bəy hərdən zarafatla "sən bizi atdın, niyə davam eləmədin" - deyə mənə satəşırdı. Ancaq özü görürdü ki, 2 uşaqla mənimçün çətindir. Sonra üçüncü övladım dünyaya gəlməmişdən kimyaçı mühəndis-texnoloq ixtisası üzrə institutu əla qiymətlərlə bitirdim. 3 il evdə oturub uşağın böyüməsini gözlədim. Bu illər ərzində musiqisiz yaşaya bilmirdim. Axı mənim özülüm qoyulmuşdu. "Nece olub ki, mən musiqini atmışam?"- deyə daim narahatlıqla düşünürdüm.

ÜZEYİR BƏYDƏN SONRA BAŞSIZ QALDIQ

Bir gün Üzeyir bəyin dərsinə gəlirdim. O, məni görən kimi qapıdan tez mənə tərəf gəldi və dedi ki, Ədilə, mən sənin çün Nigar Rəfibəylinin şerini tapmışam, çox istəyirəm ki, buna musiqi bəstələyəsən. Mənim bir xasiyyətim vardı ki, kimsə mənə şer verəndə xoşlamırdım. Özüm axtarıb tapmaq istəyirdim. Ancaq Üzeyir bəyin sözündən çıxmaq olmazdı. Üzeyir bəyin mənə verdiyi şer Stalin haqqında idi. O, mənə əsəri necə yazacağım haqqında tapşırıq verdi. Evə gələ-gələ öz-özümə həyəcanlanır, əsəri necə yazacağım haqqında düşünürdüm. "Bəlkə alınmayacaq? Bəlkə Üzeyir bəy bəyənməyəcək?"- deyə çox narahatçılıq keçirirdim. Ancaq Üzeyir bəyin məsləhətləri köməyimə çatdı. Əsəri işlədim, Üzeyir bəyə aparanda çox bəyəndi. Yenə Bülbülə zəng vurdu. Yenə əsərimin ifaçısı Bülbül oldu. Elə bir dövlət konserti yox idi ki, Bülbül həmin əsəri orda oxumasın. Bizim İçərişəhərdəki evimizin balkonu Filarmoniyanın yay zalı ilə üzbəüz idi. Ordan səs evimizə gəlirdi.

44-cü ildə mən SSRİ Bəstəkarlar İttifaqının üzvü oldum. Biz o zaman Moskvaya tabe idik. Moskva bizi qəbul edəndən sonra dərhal Bakıda da Bəstəkarlar İttifaqına üzv qəbul olunurduq.

- Üzeyir bəylə münasibətiniz nə vaxta qədər davam elədi?

- Üzeyir bəyin ömrünün son gününə qədər münasibətim davam elədi. 78-ci ilin 23 noyabrında Üzeyir bəy vəfat elədi. Həmin gün Konservatoriyada böyük matəm oldu. Hamı ağlayırdı. Mən uşaqlarımı baldızıma tapşırıb Konservatoriyaya getdim. Biz bəstəkarlar 3 gün fəxri qarovulda qaldıq. Bütün insanlar Üzeyir bəylə vidalaşmağa gəlirdi. Bülbül "Sensiz"i, "Sevgili canan"ı oxuduqca bütün insanlar ağlayırdı. Mircəfər Bağırov da fəxri qarovulda durmuşdu. İnsan axımının ardı-arası kəsilmirdi. 3 gündən sonra dəfn mərasimi oldu. Mircəfər Bağırov tabutu öz çiyninə götürdü. İnanın ki, biz insan axımından tabuta yaxınlaşa bilmədik. Mən hələ belə bir vidalaşma mərasimi görməmişəm. Biz o gün gözəl, sadə bir insanı, əvəzsiz müəllimimizi son mənzilə yola saldıq.

- Üzeyir bəydən sonra siz bəstəkarların pasibanı kim oldu?

- Biz başsız qaldıq. Muğamların üstündə əsər yazmaqla Üzeyir bəyin şöbəsi məşğul olurdu. M.Bağırov bir neçə aydan sonra bütün bəstəkarları çağırdı. Bizi 8 saat öz kabinetində saxladı. Dedi ki, şöbə bağlanmalı və ümumi bəstəkarlıq fakültəsi olmalıdır. M.Bağırov yaman hirslənmişdi. Ağzından çıxanı bəstəkarlara deyirdi. Birini pantürkçülükdə günahlandırdı. Tofiq Quliyev cazla məşğul olduğu üçün dedi ki, onu Moskvadan Bakıya qoymaq lazım deyil. Hamımız qorxudan titrəyirdik. Şükür Allaha ki, mənə heç nə demədi, Beləliklə, Konservatoriyada həmin şöbə bağlandı. Biz IV kursda oxuyurduq. Təzədən bütün fənlərdən imtahan vermək lazım idi. 40-50 adamın içindən cəmi 4 nəfər seçdilər. Onlardan biri də mən oldum. Ümumi bəstəkarlıq fakültəsində oxumağa başladıq. Hazırlıq kursunu bitirdikdən sonra özümüz kimin sinfində oxuyacağımızı müəyyənləşdirdik. O vaxt Üzeyir bəy çox dəyərli professorları Leninqraddan dəvət eləmişdi. Professor Boris Zeydmanı da özünə müavin eləmişdi. Mən Zeydmanın sinfinə düşdüm. Məmimlə bərabər Azər Rzayev, Həsən Rzayev, İsmayıl Quliyev və Bayram Hüseynli oxuyurdu. İnstitutu qurtardıq. Bəstəkarlıq şöbəsi çox çətin idi. İndi məəttəl qalmışam, yerindən duran bir nəğməni hazırlayıb, "mən bəstəkaram" - deyir. Bəstəkarlıq üçün gecə-gündüz çalışmaq lazımdır.

TALEYİN KƏDƏR PAYI

- İlk mahnınızın taleyi uğurlu olmuşdu. Dahi Üzeyir bəy bəyənmiş, görkəmli müğənni Bülbül oxumuşdu. Sonrakı əsərlərinizin taleyi də elə parlaq oldumu?

- Əsərlərimi Şövkət Məmmədova, Rahilə Cabbarova, Firəngiz Əhmədova, Fidan və Xuraman Qasımova bacıları, Lütfiyar İmanov, Sona Aslanova və başqaları oxuyub. Lent yazıları da məndə var. 80 illik yubileyimdə yazıb mənə göndərmişdilər. Dekadada əsərimi Əli Haqverdiyev ifa eləmişdi.

37-ci ildə ailəmizə bədbəxtlik üz verdi. Atam ticarətçi idi. O, dünyanın hər yerini gəzmişdi. Əmimlə onun "Neftçilər" prospektində dükanları vardı. O vaxt İran pasportu olanlara toxunulmurdu. Atamla əmimin də İran pasportu var idi. Həmin pasportu olduğu üçün qardaşımı əsgər aparmırdılar. Hökumət İran pasportu ilə qardaşımı Leninqrada göndərmişdi. O da Ressamlıq Akademiyasını qurtarmışdı. Əmimin 70-ə yaxın yaşı vardı. Bir gün əmimi apardılar. O, çox təmiz insan idi. Nə əmimin, nə də atamın siyasətlə arası yox idi. Aparanda demişdilər ki, gedək, yenə qayıdarsan. Ancaq o gedən oldu. Daha gəlmədi... Səhəri gəlib atamı apardılar. Qardaşım "mən gedib öyrənim ki, onları niyə aparırlar. Səbəbsiz heç nə olmur"-deyə onların ardınca getdi. Qardaşım gedəndə onun pasportunu soruşublar və İran pasportu olduğunu görüncə onu da içəri salmışdılar. Qardaşım da qayıtmadı. Səhəri gün bizə çağırış vərəqi gəldi ki, bir həftəyə hamınız İrana getməlisiniz. Məndə də İran pasportu idi. Yoldaşım isə kommunist idi. Məndən 2 uşağımı alıb yoldaşıma verirdilər. Yoldaşım çox gözəl insan idi. Anam öz dərdini unudub mənim taleyimə ağlayırdı. Xarici İşlər Nazirliyində Tahirə Tahirova adlı qadın nazir işləyirdi. Mircəfərin vaxtında onun həyat yoldaşı Abdulla mənim həyat yoldaşımla dost olmuşdu. Yoldaşım sevinərək gəldi ki, əgər mən pasportumu dəyişmək haqqında ərizə yazsam, qala bilərəm. Anam rahat oldu. Bir həftədən sonra anamgil getdi. Mən yoldaşım və uşaqlarımla qaldım. Anam yazıq o qədər qorxmuşdu ki, gedəndə "nə biz sizə yazırıq, nə də siz bizə yazın" - dedi. Anam yoldaşıma görə narahat idi ki, birdən onu incidərlər. Mən onlardan heç bir xəbər bilmədim.

20 İLİN AYRILIĞI

- Bəs uzun illərin ayrılığına nə vaxt son qoyuldu? Siz əzizlərinizdən nə vaxt xəbər tuta bildiniz?

- 20 ildən sonra bir məktub gəldi. Əvvəllər evimizin nömrəsi 26 idi. Onlar gedəndən sonra isə dəyişərək 28 nömrəli ev olmuşdu. Anamgilin mənim adıma yazdıqları məktub qonşuya gəlmişdi. Bir də gördüm ki, qonşu gələrək: "Bu məktub ərəb dilində yazılıb, biz oxuya bilmirik, deyəsən İrandandır" - dedi. Mən ellərim əsə-əsə məktubu aldım. 20 ilin həsrətindən sonra mənə məktub gəlmişdi! Elə bilirsiniz, məktubu açа bilirdim? Düz yarım saat məktubu açа bilmədim. Nəhayət, məktubu açanda onların hamısının sağ-salamat olması xəbərini oxudum. Sonra anam turist putyovkası ilə 2 həftəlik Bakıya gəldi. Yenidən Tahirə xanımın yanına gedib, anamın səfərinin uzadılması üçün yol göstərməsini xahiş etdim. Moskvaya ərizə yazıb anamı 1 il saxladım. 1 il tamam olandan sonra yenidən ərizə yazdım. Belece, anamı 2 il yarım saxladım.

SƏNƏ SALAM GƏTİRMİŞƏM...

Bir dəfə Hacı Xanməmmədov mənə danışdı ki, İranda olarkən bir xanım ona yaxınlaşaraq məni tanıyıb-tanımadığını soruşub. Hacı müəllim: "Əlbəttə, tanıyıram, Ədilə ilə bir yerdə oxumuşuq"-deyib. Vaxtilə piano ilə məşğul olan iki bacım da musiqi sənətləri-ni davam etdirərək, İranda musiqi ilə məşğul olublar. Rəşid Behbudov İranda konsert verən zaman onlar Rəşidə yaxınlaşaraq: "Siz Ədilə Hüseynzadəni tanıyırsınız?" - deyə soruşanda, Rəşid Behbudov "dayanın, dayanın" deyərək, yuxarı mərtəbəyə çıxıb və üstündə şəklim olan mahnılarım çap olunmuş kitabı gətirib onlara verib. Onlar mənim bəstəkar olmağıma məəttəl qalıblar.

Bir gün də Fikrət Əmirov mənə zəng vuraraq: "İrana gedirəm, nə sözün var?" - dedi. Kiçik bir kağız götürərək yazdım: "Əziz bacılarım, xahiş edirəm, Fikrətə lazım olan hörməti göstərəsiniz". Fikrət qayıdandan sonra mənə onlarla necə görüşdüklərini danışdı. Dedi ki, səfirlikdə olarkən bir bacın gəlib mənlə görüşdü. Bir az keçdi, elə bildim qapıdan sən gəlirsən, ikinci bacın içəri daxil oldu. Kiçik bacım mənə çox oxşayır. Qardaşım Fikrəti evə qonaq çağırıb. Fikrət gələndən sonra çox razılıqla danışdı.

"VƏSLİN HƏVƏSİ" ÖMRÜMÜ SON ANA YETİRDİ

- Siz necə, İrana getdinizmi?

- Yox, mən gedə bilmədim. Məni buraxmadılar. Burda bütün sənədlərimi düzəltdim, çamadanımı yığdım. Moskvadakı İran səfirliyi imtina elədi.

- Bəs atanızı daha heç vaxt görə bilmədiniz?

- Yox... Bilirsənmi, qızım, bu barədə danışmaq mənimçün çox ağırdır (otağa çökən dərin sükut bir neçə dəqiqə davam edir) Atam həmişə tranzistora qulaq asardı. Anam mənə danışdı ki, atam çox qocalmışdı. O, xəstə deyildi, sadəcə, yaşa dolmuşdu. Uzandığı yerdə də tranzistor həmişə yanında olurmuş. Həmişə də "birdən Ədilədən bir səs gələr" - deyə Bakıya qulaq asarmış. Bir gün yenə radioya qulaq asanda Bülbülün ifasında "Vəslin həvəsi"ni elan edirlər. Atam qulaq asa-asa gözlərindən yaş süzülür.

"Vəslin həvəsi" ömrümü son ana yetirdi"- deyə Bülbül oxuduqca sanki atamın ürəyindən xəbər verir. Atam: "Dünyanın ən xoşbəxt adamı mənəm"- deyir. O, bu mahnını eşidəndən 2 gün sonra dünyasını dəyişir.

Heç yadımdan çıxmır. Mənlə bacım uşaq olanda atam əlimizdən tutub bizi Çəmbərəkənddəki musiqi məktəbinə aparardı. Həmin məktəb Bakının yuxarı hissəsində yerləşdiyindən oranı möhkəm külək tutardı. Atamın həmin diki küləkdə necə qalxması gözlərimin qarşısındadır. Atam bizi heç vaxt tək buraxmazdı. Atam da, anam da sənətə qiymət verirdi. Ona görə bütün övladları da incəsənəti seçdilər. Mənim adım Azərbaycan və rus dillərində musiqi ensiklopediyasına düşüb. Bacılarım Şəfiqə və Xədicənin də adı İranda musiqi ensiklopediyasına salınıb. Qardaşım Həsən də məşhur rəssam idi. 3-4 il bundan əvvəl rəhmətə getdi. Bacılarımla isə tez-tez telefonla danışırıq. Kiçik bacım 3 dəfə Bakıya gəlib. Sonuncu dəfə 2 həftə bundan qabaq gəlmişdi.

SON AKKORDLAR

- İndi necə, yaza bilirsinizmi?

- Yox, qızım, indi yaxşı görə bilmirəm. Daha qocalmışam.

- Yəqin ki, ömrünü-gününü musiqiyə həsr edən bir insan kimi indi yaza bilmədiyiniz üçün darıxırsınız?

- İnanırsanmı, mən deyirdim ki, əgər bir gün yazmasam ölərəm. Amma ölmürəm ki. Qızım, oğlum rəhmətə getdi. Heyətdir da... Özümün 89 yaşım var. Bilmirəm Allah məni niyə saxlayıb? Bəlkə ürəyimin təmizliyinə görə? Heç vaxt heç kimə pislik etməmişəm. Həmişə yaxşılıq eləməyə çalışmışam. Heç vaxt paxıl olmaq lazım deyil. Başqasının sevincinə sevinmək lazımdır. Çoxlu tələbələrim var. Hamısı da məni çox istəyir. Əsərlərimi çox oxuyublar. Heç kəsdən də bunu xahiş etməmişəm. Bir gün Üzeyir bəy məni çağırtdırdı ki, Ədilə, qızım, mən istəyirəm ki, sən "Arşın mal alan"da Asyanı oxuyasan. Onda Rəşid Behbudovun iştirakı ilə I "Arşın mal alan" hazırlanırdı. Mən Asyanı oxumaq üçün "zapis"ə getdim. Qapıda dedilər ki, indi Niyazi səsini yazana qədər başına oyun getirecək, seni düz 10 saat saxlayacaq. Sesyazma otağına daxil oldum. Bir dəfə oxuyan kimi yazıldı.

- Bəs gənclik illərinizin pianosu hardadır?

- Pianom İçərişəhərdə qaldı. O vaxtlar o qədər də piano yox idi. Mən eladiyimi eladim. Çoxlu əsərlər yazdım. Yazdıqlarımın çoxu çapdan çıxıb. Bilirsənmi, qızım, mən elə-belə, başdansovdu iş görə bilmərəm. Gördüyüm iş bütün canımla olmalıdır. Bəstəkarın əsəri canından çıxmalı, notlar qanıyla yazılmalıdır. İndi mənim nə gücüm var?

Təsisçi:
"İntellekt" firması

Baş redaktor:
N.Heydərov

Ünvan: Bakı ş.
S.Əsgərova 85.
Telefon: 98-03-69,
98-48-59
Faks: 98-03-69
E-mail: kaspi@azdata.net

Qəzet Mətbuat və
İnformasiya Nazirliyində
qeydiyyatdan keçib.
Lisenziya №022264,
Qeydiyyat №V 64

Qəzet redaksiyanın
kompüter mərkəzində yığılıb,
səhifələnib.
Bazar və bazar ertəsindən başqa
hər gün çıxır

Tiraj: 5000

*Müəllifl ərin mövqeyi ilə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər.*